# Azərbaycan dilinin yaranması və təşəkkülü

Qədim və zəngin tarixə malik türk dilləri ailəsinin oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi uzaq keçmişlərə söykənir. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi ünsiyyət vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi işlənməyə başlamışdır. Azərbaycan yazılı ədəbi dilinin məhz ümumxalq dili əsasında təşəkkül tapmışdır. Xalq şifahi şəkildə yaratdıqlarını yazıya köçürmüşdür. Beləliklə, bu, yazı dilinin təşəkkülü və sabitləşməsində mühüm rola malik olmuşdur.
Dilimizin uzun formalaşma tarixi aşağıdakı dövrlərə bölünə bilər:

**Əski dövr (V–X əsrlər):** əski türk dilinin formalaşması, türk əlifbasının yaranması, Orxun abidələrinin ucaldılması ilə türk yazı tarixinin başlanması.

**Orta dövr (X–XIV əsrlər):** Oğuz ağızların əski türk dilindən ayrılması, o şivələr əsasında oğuz ədəbi və yazı dilinin formalaşması, oğuzların İslamı qəbul etməyi ilə ərəb əlifbasına keçməsi, Divanü Lüğat-it-Türk, Oğuznamə və Kitabi-Dədə Qorqud kimi əsərlərin yaranması və qələmə alınması, Azərbaycan dilinin Böyük Səlcuqlu imperiyasının saray dilinə çevrilməsi.

**Klassik dövr (XIV–XVIII əsrlər):** Azərbaycan və Anadolu şivələrin müxtəlif yerli dövlətlərin saray dillərinə çevrilməsi, saray dilinin xalq dilindən uzaqlaşması, əsas ədəbiyyat formasının şeir olması.

**Yeni dövr (XVIII–XX əsrlər):** ədəbi dilin saray dilindən uzaqlaşıb yenidən xalq dilinə yaxınlaşması, ilk nəsr və dram əsərlərin yazılması, ilk qəzet və jurnalların çap olunması, Azərbaycan dilinin qrammatika qanunlarını araşıdıran Fənni-sərfi-Türki dərsliyinin çap olunması.
Azərbaycan dilinin bu dövrü üç mərhələni əhatə edir:

**1.** Ədəbi dilin xəlqiləşməsi mərhələsi **(18-ci əsr)**

**2.** Milli dilin yaranması və inkişafı mərhələsi **(19–20 əsrin 1-ci rübü);**

**3.** Müasir mərhələ **(20-ci əsrin 1-ci rübündən sonra).**

20-ci əsrdə Azərbaycan ədəbi dilinin inkişafında üç meyil özünü göstərir:

**1.** Ədəbi dili xalq dili ilə eyniləşdirmək meyli. Bu, özünün əksini Molla Nəsrəddin jurnalının yazılarında, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev kimi yazıçıların əsərlərində tapmışdır;

**2.** Daha çox Osmanlı (türk) və əski Azərbaycan dilinin ənənəsinə söykənən ədəbi dil yaratmaq meyli. Bu, Füyuzat və Həyat kimi bir çox jurnal və qəzetlərin, Əli bəy Hüseynzadə kimi maarifpərvər yazıçıların dilində özünü göstərir. Bu dil ovaxtkı Osmanlı ədəbi dilindən, demək olar ki, seçilmirdi;

**3.** Hamı tərəfindən anlaşılan, ədəbi dil normalarına əsaslanan ədəbi dil yaratmaq meyli. Heç bir dialekt təsirini qəbul etməyən bu dili Abdulla Şaiq, Cəfər Cabbarlı, Seyid Hüseyn Sadiq, Abbas Səhhət kimi şair və yazıçılar yaradırdılar. Ədəbi dil sahəsindəki bu durum əsrin əvvəllərindən 30-cu illərədək davam etdi.
Türkoloq **Sergey Malov** türk dillərini tarixi baxımdan bu bölgü üzrə qruplaşdırır:

**a)** ən qədim türk dilləri: bulqar, uyqur (sarı uyqurlar), çuvaş, yakut;

**b)** qədim türk dilləri: "oğuz" (qədim türk-run yazılı abidələrinin dili), tofalar, tuva, uyqur (qədim uyqur yazılı abidələrinin dili), xakas, şor;

**c)** yeni türk dilləri: Azərbaycan, qaqauz, kumandin, qıpcaq, peçeneq, polovets, salar, türk, türkmən, uyqur (Çin və ya Şərqi-Türküstan uyqurları), özbək, cığatay, çulım;

**ç)** ən yeni türk dilləri: başqırd, qazax, qaraqalpaq, qırğız, qumıq, noqay, oyrot (dağlıq Altay), tatar (Kazan, Qasımov, Mişar, qərbi Sibir), (çuvaş), (yakut).

Türkoloq, folklorşünas **Nikolay Baskakov** Azərbaycan dilini - türk dillərinin qərbi Hun qolunun oğuz qrupuna aid edir. O, Azərbaycan, türkmən, truxmən, qaqauz və türk-osmanlı dillərindən müasir oğuz dilləri kimi danışır.

Türk dillərinin bölgüsü, qruplaşdırılması barədə fikirlər müxtəlifdir. Görkəmli dilçilərdən **P.M.Melioranski** yazır ki**, *"Müasir türk ləhcələrinin ən yaxşı xarakteristikasını və bölgüsünü akademik V.V.Radlov vermişdir. O, türk dillərini şərqi, qərbi, Orta Asiya və cənubi hissələrə ayırır".***

Ənənəvi-morfoloji və ya tipoloji təsnifat baxımından Azərbaycan dili iltisaqi (aqlütinativ)* dillər qrupuna daxildir. Bu qrupa daxil olan bütün dillər kimi, Azərbaycan dilində də insirafi (flektiv) dillərdən fərqli olaraq bütün söz kökləri özümlü leksik və qrammatik mənası olan müstəqil sözlərdir; qrammatik mənalar və qrammatik əlaqələr isə həmişə söz kökündən və kökdən sonra gələn təkmənalı (monosemantik) şəkilçilər vasitəsilə ifadə olunur.

Azərbaycan dilinin tarix üzrə ən vacib qaynaqlarından biridə **"Kitabi-Dədə Qorqud"** dastanıdır. Leksik baxımından bu kitabda 3000-ə yaxın söz işlənmişdir. Demək olarki, bu sözlərdən 773-ü çağdaş Azərbaycan dili ilə eynidir. Kitabi-Dədə Qorqud dastanlarının dili ədəbi dilimizin şifahi növü kimi qəbul edilərsə, hazırda xalqa ünsiyyət vasitəsi kimi xidmət edən dilin yaşı 1300 ildən çox sayıla bilər. Azərbaycan yazılı ədəbi dilinin tarixi isə hələlik əldə olan materiallara görə **XIII əsrdən** başlayır.

Azərbaycan dilinin yaranma tarixi hələ orta əsrlərdə təşəkkül tapmağa başlamışdır. Bildiyimiz kimi Türk dillərinə məxsus ən qədim abidə **"Orxan-Yenisey" abidələridir.** Buradan aydın olurki, fonetik baxımından abidələrdə damaq-dodaq ahənglərinin, eləcə də samitlərin ahənginə rast gəlinirki, bu da Azərbaycan dilinin nə qədər möhkəm və zəngin olmasından xəbər verir.

Azərbaycan ədəbi dili öz 800 ilə yaxın inkişafı müddətində iki böyük dövrü əhatə edir. Əski dövr adlandırılan birinci dövr XIII əsrdən XVIII, yeni adlandırıla bilən ikinci dövr isə XVIII əsrdən yaşadığımız günlərə qədər olan bir dövrü əhatə edir. Birinci dövr Azərbaycan ədəbi dilinin xidmət göstərdiyi areal öz iriliyi ilə fərqlənir. Həmin dövrün Cəlarilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi Azərbaycan dövlətlərinin saray və ordu dili olan bu dil bütün Ön Asiyada ədəbi dil kimi xidmət etmişdir.

Ölkəmizin ərazisində qədim əlifbaların mövcudluğu, həmçinin mükəmməl yazı dilimizin olması qaynağını uzaq keçmişdən alan Azərbaycan dilinin qədim tarixi köklərə malik olduğunu bir daha sübuta yetirir. XVI əsrdə Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dilinin mövqeyi möhkəmlənərək dövlət dili səviyyəsinə qalxmış, rəsmi və dövlətlərarası yazışmalarda işlədilmişdir. Səfəvilər dövründə Azərbaycan dili sarayda və orduda tam hakim mövqe tutaraq dövlət dili kimi rəsmiləşmişdi. XX yüzillik Azərbaycan

ədəbi dilinin çiçəklənməsi dövrüdür. Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur. Həmin dövrdə ana dilinə dair kitablar hazırlanmış, dərsliklər nəşr olunmuşdur. Azərbaycan dilinin səs quruluşuna və qrammatik sisteminə dair ədəbiyyatlar meydana gəlmişdi. Ana dili uğrunda mübarizənin önündə gedən mətbuatla yanaşı, ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak etmişlər.

Qeyd etdiyimiz kimi, Səfəvilərin hakimiyyəti dövründə Azərbaycan dili dövlət dili səviyyəsinə qaldırılsa da, milli dövlətçiliyin itirilməsi nəticəsində 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər bu proses uzun bir zaman kəsiyində qırılmışdır. Cümhuriyyət yarandıqdan sonar Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açılsa da Azərbaycan Xalq Cümhuriyyətinin çox qısa, 23 ay ömür sürməsi ana dilimizin cəmiyyətdə dövlət dili kimi mövqelərinin tam bərqərar edilməsinə imkan verməmişdir. 1923-cü ildən latın qrafikalı əlifbaya keçmə prosesi ilə və 1926-cı ildə toplanan I Ümumittifaq türkoloji qurultayından sonra 1 yanvar 1929-cu ildən kütləvi şəkildə latın qrafikasına keçid, qısa müddət ərzində Azərbaycanda bu əlifbanın işlənməsi geniş kütlə arasında savadsızlığın aradan qaldırılmasına əlverişli zəmin yaratsa da, 1 yanvar 1940-cı ildən kiril yazısı əsasında tərtib olunmuş yeni qrafikalı əlifba ilə əvəz olundu.

Azərbaycan Əlifbasının Tarixi İnkişafı :

**Ərəb Qrafikası (VIII-XX əsrin əvvəli):** Ərəb əlifbasının tətbiqi İslamın yayılması ilə əlaqədar idi. Bu əlifba uzun müddət istifadə olunsa da, Azərbaycan dilinin səs tərkibini tam əks etdirmirdi, çünki ərəb qrafikasında bəzi səslərin yazılması çətin idi.

**Latın Qrafikası (1929-1940):** 1929-cu ildə latın əsaslı yeni əlifba qəbul olundu. Bu keçid dilin fonetik xüsusiyyətlərini daha dəqiq əks etdirməyi hədəflədi. Yenilik xalq arasında sürətlə yayıldı və maariflənməyə mühüm təsir göstərdi.

**Kiril Qrafikası (1940-1991):** 1940-cı illərdə sovet hakimiyyətinin təsiri ilə kiril qrafikasına keçid edildi. Bu dəyişiklik milli yazı ənənəsinə müdaxilə kimi qəbul olunsa da, uzun müddət istifadədə qaldı və nəsillərin formalaşmasında rol oynadı.

**Latın Əlifbasına Yenidən Keçid (1991-bugün):** Müstəqillik əldə etdikdən sonra Azərbaycanın milli kimliyinin bir hissəsi olaraq latın əsaslı əlifbaya qayıdış baş verdi. 1992-ci ildə qəbul edilən müasir Azərbaycan əlifbası 32 hərfdən ibarətdir və dilimizin bütün səslərini dəqiq əks etdirir.

Azərbaycan xalqının etnik əsasını təşkil edən türklər indiki Azərbaycan ərazisində eramızdan əvvəl görünməyə başlamış, birinci minilliyin əvvəlindən isə başqa mənşədən olan çoxsaylı tayfalarla birlikdə bu torpağın qədim sakinləri olmuşlar. Türk mənşəli Azərbaycan dilinin və həmin dildə danışan xalqın yaranması, başqa sözlə, bu dilin ümumi ünsiyyət vasitəsinə çevrilməsi uzun sürən, bir neçə əsr davam edən bir proses olmuşdur. Azərbaycan dili böyük inkişaf yolu keçmiş qədim ədəbi dillərdən biridir.

Birinci dövr Azərbaycan dilində ərəb və fars sözləri çoxdur. O dövrün dil üslubları, xüsusən aparıcı poetik janr və vasitələr ədəbi dilimizə külli miqdarda alınma sözlərin axıb gəlməsinə səbəb olmuşdu. İkinci dövrdə isə realist şeir məktəbinin, realizm ədəbi metodunun bir yaradıcılıq metodu kimi yaranması və aparıcı yaradıcılıq metodu kimi

formalaşması dilimizin əsas lüğət fonduna keçə bilməyən alınma sözlərin ədəbi dili tərk etməsinə səbəb olmuşdu.

Azərbaycan dilinin ölkənin dövlət dili kimi elan edilməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Bəlli olduğu kimi, dövlət dili sahəsindəki fəaliyyətə Heydər Əliyev ölkəyə rəhbərliyə gəldiyi ilin (1969) ilk günlərindən başlamışdır. 1978-ci il aprel ayının 21-də Doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (əsas qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş yeni Konstitusiyada Azərbaycan dili dövlət dili kimi öz layiqli yerini tutur. Konstitusiyanın 21-ci maddəsinə əsasən Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir. Hazırda Azərbaycanda latın qrafikası əsasında yaradılmış Azərbaycan əlifbasından istifadə edilir.

İşləndiyi sahələrlə bağlı olaraq, Azərbaycan ədəbi dili dörd əsas üslubu özündə birləşdirir: işgüzar, mətbuat, bədii, elmi üslublar. Azərbaycan ədəbi dilinin müasir mərhələsində bu üslubların hamısı yüksək dərəcədə inkişaf etmişdir. Ölkənin siyasi, iqtisadi, elmi, mədəni həyatında baş verən böyük dəyişikliklər müasir Azərbaycan dilinin lüğət tərkibində terminlərin sürətlə artmasına səbəb olmuşdur. Bu proses ədəbi dilin bütün üslublarında, özəlliklə, işgüzar və elmi üslublarda, müəyyən dərəcədə mətbuat üslubunda aydın müşahidə olunur.

Azərbaycan dilinin dialekt və şivələrinin geniş və elmi şəkildə öyrənilməsinə XX əsrdə başlanılmışdır. Həmin əsrdə dialektologiya məsələlərinə dair bir sıra elmi əsərlər yaradılmışdır**. M.Şirəliyev** coğrafi ərazi prinsipi üzrə Azərbaycan dilinin dialekt və şivələrinin 4 qrupa bölmüşdür:

**1) Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələri.** Buraya Quba, Bakı, Şamaxı dialektləri və Muğan, Lənkəran şivələri daxildir.

**2) Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri.** Buraya Qazax, Qarabağ, Gəncə dialektləri və Ayrım şivəsi aiddir.

**3) Azərbaycan dilinin Şimal qrupu dialekt və şivələri.** Buraya Nuxa dialekti və Zaqatala-Qax şivəsi daxildir.

**4) Azərbaycan dilinin Cənub qrupu dialekt və şivələri.** Buraya Naxçıvan, Ordubad, Təbriz dialektləri və Yerevan şivəsi daxildir.

Tiflisdə yaşayan müsəlman ziyalıları arasında 1879-cu ildən başlayaraq "Azərbaycan dili" dil adı yayılmış, onlar bu dildə danışanları azərbaycanlı adlandırmışdır. "Azərbaycanlı" adının tətbiqində birinci səbəb istifadə edilən müsəlman kimliyinin düzgün hesab edilməməsi idi. İkinci səbəb bu idi ki, ziyalıların fikrinə görə, azərbaycanlılar Volqa və Krım tatarlarından, Osmanlı türklərindən fərqli bir mədəniyyət, adət-ənənə və dilə malikdir.

Ümumiyyətlə "azərbaycanlı" sözü ilə əvəz olunan "azəri" termini Anadolu türkcəsindən yaranmış "azəri" sözündəndir. Mirzə Kazım bəy 1839-cu ildə "Azəri" ifadəsinin Cənubi və Şimali Qafqazda yaşayan türk-tatar əhalisinin istifadə etdiyi dili ifadə edən termin kimi işlədildiyini qeyd etmişdir.

1956-cı ildə 1937-ci il Konstitusiyasına əlavə edilən maddədə "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" ifadəsi təsbit olunmuşdur. Azərbaycan, Ermənistan və Gürcüstan SSRİ tərkibində Konstitusiyalarında titul dili rəsmi dövlət dili kimi göstərilən nadir respublikalar sırasında olmuşdur.

XX əsrdən əvvəlki yazılı ədəbiyyata nəzər salındıqda, Xaqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli,Aşıq Qurbani, Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, Mirzə Ələkbər Sabir, Mirzə Fətəli Axundov və digər klassik Azərbaycan müəlliflərinin əsərlərində yazı dili əsasən türk dili kimi təqdim olunmuşdur. XX əsrin birinci yarısında fəaliyyət göstərmiş Mirzə Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Əhməd Cavad, Hüseyn Cavid və Almas İldırım kimi müəlliflər də eyni terminologiyadan istifadə etmişdir.

Böyük rus şairi **M.Y.Lermantov** Azərbaycan dili haqqında demişdir: ***“...mən bir çox dağlar aşdım, Şuşa, Quba və Şamaxı şəhərlərində oldum... azərbaycanca öyrənməyə başladım; həmin dil burada və ümumiyyətlə, Asiyada fransız dilinin Avropada olduğu qədər zəruri bil dildir”.***

Məşhur şəxsiyyətlərdən Bestujev-Marlinski və başqaları da Azərbaycan dilinin əhəmiyyətindən bəhs etmişlər. Görkəmli ictimai xadim olan **Sultan Məcid Qənizadə** Azərbaycan dili haqqında yazmışdır: ***“Həqiqətən bu dil öz təbiatinə görə çox elastikdir və asanlıqla zərif üslubi formalara düşmə bacarığına malik olmaqla öz xüsusiyyətləri ilə fəxr edə bilər. Bu xüsusiyyətlər öz mahiyyətinə görə çox maraqlıdır... Buradakı xüsusiyyətlərə bənzər hadisələrə hər hansı bir başqa dildə az təsadüf etmək olar”.***

1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan olunmuşdur. Konstitusiyanın **21-ci maddəsində** deyilir: **“Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir”.**

Ulu Öndərin Azərbaycan dilinin milli mənəvi, siyasi-hüquqi bərpası istiqamətində atılmış vacib addımlardan biri də 18 iyun 2001-ci ildə “Dövlət dilinin işinin tətbiqi təkmilləşdirilməsi haqqında” Fərmanı olmuşdur. Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, onun geniş tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir. Eyni zamanda, problem və nöqsanlar müəyyənləşdirilərək onların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verilmiş və qəti olaraq 2001-ci il avqust ayının 1-dən latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi qərara alınmışdır. 9 avqust 2001-ci ildə “Azərbaycan Əlifbası və Azərbaycan Dili gününün təsis edilməsi haqqında” Fərmanı ilə bu tarix xalqımızın əlamətdar bayramları sırasına daxil olmuşdur. Dahi şəxsiyyət Heydər Əliyev ana dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğundakı ideya istiqamətinin bütün dövrlərdə siyasi baxışlara uyğun səviyyədə aparılması istiqamətində atılmış mühüm addımlardan biri kimi 2 yanvar 2003-cü ildə qüvvəyə minmiş “Azərbaycan Respublikasının dövlət dili haqqında” Qanunu qeyd etmək lazımdır.

Uzun bir tarixi dövrdə ayrı-ayrı şəxsiyyətlərin ana dilimizlə bağlı həyata keçirdiyi tədbirlərin küllünü belə Ulu Öndərin fəaliyyəti dövründəki tədbirləri bir tərəzinin gözünə qoymaq qeyri-mümkündür. Çünki dahi lider bu sahədə elə bir zəncir yaratmışdır ki, o zəncirin halqaları zaman keçdikcə nəinki qırılmamış, daha da güclənmişdir. Belə ki, vaxtilə gərgin əmək sayəsində ərsəyə gətirilmiş, dövlətçilik siyasətimizin mühüm bir parçası olan dil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun ana dilinin dövlət dili kimi maneəsiz işləkliyi üçün göstərdiyi siyasi və milli iradə Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və türk dilləri arasında yüksək mövqe qazanmasına xidmət edir. Prezidentin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 14 yanvar 2004-cü il tarixli "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", 30 dekabr 2007-ci il tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ana dilimizə yüksək qayğı zəncirinin qırılmaz halqalarıdır. 23 may 2012-ci ildə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Azərbaycan dilinin tətbiqi və inkişafı üçün yeni bir addım olmuşdur. Bu sənəddə Azərbaycan dilinin tarixi əsasları barədə mükəmməl təsəvvür yaradılmış və inkişaf problemləri haqqında sistemli şəkildə bəhs edilmiş, Azərbaycan dilinin mənşəyi ilə bağlı davam edən yanlış konsepsiyaya son qoyulması, tarixi faktlara əsaslanaraq Azərbaycan dilinin dövlət dili kimi yaşaması, inkişaf etdirilməsi üçün həm inzibati, hüquqi-siyasi, həm də elmi-nəzəri istiqamətlər müəyyənləşdirilməsinin zəruriliyi qeyd etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyi ilə bağlı keçirilən ümumi yığıncaqda (9 noyabr 2015-ci il) söylədiyi dərin məzmunlu nitqində xalqımızın mənəvi sərvəti olan Azərbaycan dilinin saflığının qorunmasının zəruriliyini ayrıca olaraq vurğulamışdır: ***"Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik, Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə bu gün bəzi hallarda dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da, narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdu. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq, bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".*** Ölkə başçısının dövlət dili haqqındakı qayğı dolu bu sözləri və tələbi hər bir Azərbaycan vətəndaşının vəzifə borcu olmalı və sözsüz həyata keçirilməlidir.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev yola saldığımız 2018-ci ildə də Azərbaycan dili ilə bağlı iki mühüm dövlət sənədinə imza atmışdır. Onlardan birincisi ölkə prezidentinin "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin

təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında "17 iyul 2018-ci il tarixli Sərəncamıdır. Bu mühüm dövlət sənədinə uyğun olaraq əcnəbilər üçün Azərbaycan dilinin elektron platformasının yaradılması nəzərdə tutulur. Qeyd edək ki, AMEA Nəsimi adına Dilçilik İnstitutunda həmin platformanın yaradılması üçün "Salam Azərbaycan" adlı layihənin hazırlanması işinə artıq başlanılmışdır.

Möhtərəm prezident cənab İlham Əliyev 1 noyabr 2018-ci ildə isə "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər planı haqqında" Fərman imzalamışdır. Fərmana əsasən reklam daşıyıcılarında, internet resurslarında və kütləvi informasiya vasitələrində yol verilən dil pozuntularının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq mərkəzinin yaradılması nəzərdə tutulur. AMEA Nəsimi adına Dilçilik İnstitutu bu mərkəzin yaradılması ilə bağlı tədbirlər planı hazırlamış və Fərmandan irəli gələn vəzifələrin icrası üçün müəyyən işlər görmüşdür.

Azərbaycan dili İran İslam Respublikasında yaşayan 30 milyondan artıq azərbaycanlının da ana dilidir. Rusiyada, ABŞ-da, Türkiyədə və Qərbi Avropa ölkələrində bir neçə milyon azərbaycanlı yaşayır. Bir neçə yüzilliklər ərzində müxtəlif ölkələrin sakinləri olmalarına baxmayaraq, bu gün də hansı ölkədə yaşamalarından asılı olmayaraq, azərbaycanlılar bir-birilərini sərbəst anlayırlar. Beləliklə, yer üzündə hazırda Azərbaycan dilində danışan 50 milyondan çox adam yaşayır.

Avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Bu əlamətdar gün Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən təsis edilib.

Dünya azərbaycanlılarının ümumi ünsiyyət vasitəsi və Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin lokal tarixi və müasir nüfuzunun qorunub saxlanması milli-ictimai ehtiyac, mənəvi-mədəni borcumuzdur. Azərbaycan dili xalqın mədəniyyətinin, mənəvi zənginliklərinin bu gününü və keçmişini birləşdirən, onlar arasında əlaqə yaradan mənəvi bir sərvətdir. Bu sərvəti qorumaq dövlətçilikdə dil siyasətinin əsas konsepsiyasıdır və bu siyasət sistemli şəkildə uğurla həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin dediyi kimi: ***"Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır. Bunlarsız isə vətənpərvərlik formulu yoxdur".*** Gəlin ana dilimizi sevək, öyrənək və gələcək nəsillərə ləyaqətlə çatdıraq.

Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Rəsmi yığıncaqlarda, məclislərdə ana dilimiz fəxarətlə, təntənə ilə səslənir. Azərbaycan ədəbi dilinin hərtərəfli inkişafı, elmin müxtəlif sahələri ilə bağlı ana dilində əsərlərin yazılması, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti və onun yürütdüyü dil siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə bağlıdır. Ana dili elə bir sərvətdir ki, onda hamının payı bərabərdir.